# Qlobal ehtiramın göstəricisi



"Prezident İlham Əliyev dünya siyasətində imzası olan böyük şəxsiyyətdir. Böyük sərkərdəmizin rəhbərliyi altında Azərbaycan dünya dövlətləri arasında özünəməxsus yer tutub. Dünyada sabitlik, sülh və əməkdaşlıq məkanı kimi tanınan ölkəmiz həm də etibarlı tərəfdaş imicini formalaşdırıb. Dövlət başçımızın dünya liderləri ilə şəxsi dostluq münasibətləri Azərbaycanın beynəlxalq birliklə hərtərəfli əlaqələrini möhkəmləndirib".

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat bildirib ki, 24 dekabrda doğum gününü qeyd edən Prezident İlham Əliyevə bu münasibətlə dünyanın hər yerindən saysız-hesabsız təbrik məktubları göndərilir: "Dünyanın güc mərkəzləri hesab edilən böyük dövlətlərin rəhbərləri də İlham Əliyevə təbrikləri göndərərək xoş arzularını çatdırır, həmçinin Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını bildirirlər. Bu, dövlət başçısının dünyada olan böyük nüfuzunun və ona olan dərin hörmətin göstəricisidir. Bunun digər səbəbi isə Prezidentin rəhbərliyi altında Azərbaycanın regionda yaratdığı yeni reallıqlardır".

Deputatın sözlərinə görə, Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı münasibətlərin möhkəmləndirilməsi istiqamətində atdığı addımlar, ölkəmizin beynəxalq logistik imkanlarını dünya üçün açıq elan etməsi, beynəlxalq təşkilatlarda fəal iştirakı ilə verdiyi qlobal töhfələr dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Həmçinin üç il əvvəl 44 günlük Vətən müharibəsində torpaqlarımızı azadlığa qovuşdurmağımız və bu ilin 19-20 sentyabrında keçirdiyimiz lokal xarakterli antiterror tədbirləri ilə mülki insanlara heç bir zərər yetirmədən bütün ərazilərdə suverenliyimizi təmin etməyimiz dünya praktikasında baş verən çox nadir hadisələrdəndir. Azərbaycanın gücünün göstəricisi olan bu proseslər dünya ölkələrinin diqqətini cəlb edib.

Azər Badamov vurğulayıb ki, bütün ərazilərimizdə suverenliyimizin təmin olunması ölkədə sülhün və sabitliyin əsaslarını möhkəmləndirir: "Bu, Azərbaycanı təhlükəsiz məkana, belə demək mümkündürsə, sabitlik adasına çevirib. Elə bu da beynəlxalq ictimaiyyət tərəfindən yüksək dəyərləndirilir".

Deputat onu da deyib ki, Prezident İlham Əliyevin ünvanına göndərilən təbriklər yalnız dövlət başçıları və beynəlxalq təşkilatlar tərəfindən olmadı: "30 il ərzində torpaqlarımızı işğal altında saxlayaraq bizimlə düşmənçilik yaşamış erməni xalqının nümayəndələrinin təbrikləri xüsusilə diqqət çəkdi. Tarixdə ilk dəfə erməni jurnalistləri və siyasətçiləri sosial şəbəkələr vasitəsilə Prezident İlham Əliyevi doğum günü münasibətilə təbrik etdilər. Bu, dövlət başçısının regional sülhün və sabitliyin təminatçısı olduğunun və bunun sülhsevər ermənilər tərəfindən də qəbul edildiyinin göstəricisidir".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 26 dekabr (№ 283).- S.15.